Qısamüddətli (90 günədək) kurslar

## Viza məlumat vərəqəsi

### İsveçrədə oxumaq istəyən şəxlər üçün tələb olunan sənədlər

90 gündən az müddətdə olan kurslarda iştirak etmək istəyən məktəbli və tələbələr aşağıdakı sənədləri təqdim etməlidirlər (C vizası/şengen viza ərizə forması):

□ Tam şəkildə doldurulmuş vizası üçün ərizə forması.

□ Etibarlı pasportun orijinalı və surəti (1-ci, 2-ci və viza və ya möhür olan bütün səhifələrin sürəti).Pasport planlaşdırılmış qalma müddətindən azı 3 ay müddətinə etibarlı və son 10 ildə çap olunmalıdır.

□ Yaxın vaxtlarda çəkilmiş 2 ədəd ağ fonda fotoşəkil (veb-saytda izahata baxın).

□ Viza xidmətləri ödənişi: rüsümlarla bağlı səfirliklə əlaqə saxlayın.

□ Bütün Şengen ölkələrində və bütün səyyahət müddətində etibarlı olan ən azı 30 000 Avro və ya 50 000 ABŞ dolları miqdarında səyyahət sığortası (original və ya surəti).

□ Ərizəçinin yaşı 18dən aşağıdırsa, ərizəçinin İsveçrəyə səfər etmək və təhsil almasına dair valideyyinlər tərəfindən imzalanmış və notarial qaydada təsdiq edilmiş ingilis dilində razılıq ərizəsi.

□ İsveçrədəki məktəb, universitet, institute və s. təhsil müəssisəsindən qəbul haqda təsdiq sənədi.

□ Ərizəçənin hazırki təhsili haqda Azərbaycandakı təhsil ocağından arayış.

□ Təhsil haqqının tam və ya qismən ödənilməsinə dair təsdiq.

□ Ərizəçinin sponsorunun maliyyə durumunu təsdiq edən sənədlər: bank arayışları, mülkiyyət sənədləri, ərizəçinin İsveçrədə yaşayış və təhsil ödənişlərini təmin edə biləcək digər sənədlər.

□ İsveçrəyə səyyahətinizi təsdiq edən dəlillər/sənədlər: (tarixlər, nəqliyyat vasitəsi).

□ İsveçrədə qalacağınız yer haqda təsdiq (düşərgə və ya digər).

□ Ailəli şəxslər üçün nikah şəhadətnaməsi, uşaqlar üçün doğum şəhadətnaməsi (+ 2 surət) (İsveçrə dillərindən birinə və ya ingilis dilinə tərcümə).

*Sənədlərə ilkin baxış keçirdikdən sonra, Səfirlik lazım gəldikdə əlavə sənədlərin tələb edilməsi hüququnu özündə saxlayır.*

*Ərizə forması və əlavə sənədlər ərizəçi tərəfindən Səfirliyə* ***şəxsən*** *Bazar ertəsindən Cümə axşamına qədər, saat 09.00-dan 12.00-a qədər növbə almaqla təqdim edilməlidi. 12 yaşa qədər uşaqlar ayrıca növbə almaya bilərlər. 10 və daha artıq nəfərlik qrup səfirliklə əlaqə saxlamalıdır. Nəzərə alın ki,* ***viza üçün ərizə ancaq bütün lazımi sənədlər tam şəkildə təqdim edildikdə qəbul olunur. Sənədlərə baxılma müddəti ərizənin tam şəkildə qəbul olunduğu gündən etibarən 10 iş günüdür. Sənədlər planlaşdırılan səfər tarixindən ən azı 15 gün öncə təqdim edilməlidir.***

*Növbə www.swiss-visa.ch saytı vasitəsi ilə təyin edilir. Həmin sayt vasitəsi ilə ərizə formasının qeydiyyatı da mümkündür.*

*Səfirlik heç bir* ***kənar*** *qurum və ya xidmət göstərən təşkilatlarla əməkdaşlıq etmir.*



Viza şöbəsinin iş vaxtı: Bazar Ertəsi-Cümə Axşamı
09.30-11.30
Böyük Qala 9, İçəri, Şəhər
AZ-1004 Baku / Azərbaycan
Telephone: +994 12 437 38 50, Fax: +994 12 437 38 51
bku.vertretung@eda.admin.ch, www.eda.admin.ch/baku

V